ÖMÜR DOSTU

# Heydər Əliyevin Zərifə xanimla tanişliq hekayəsi

Xatirələrdə yaşayan akademik, alim- oftalmoloq Zərifə xanım Əliyevanın anadan olmasının 100, əbədiyyətə qovuşmasının 38-ci ildönümüdür.

Zərifə xanım Əliyeva haqqında böyük sevgi ilə danışan- Azərbaycanın və azərbaycanlıların Ümummmili Lideri, Ulu Öndər Heydər Əliyevin
xatirələri...

“Mənim böyük qardaşım mərhum Həsən Əliyev- o, Azərbaycanın böyük alimlərindən biri olubdur, akademikdir. O vaxt Elmlər Akademiyasında işləyirdi. Kislovodskaya istirahətə getmişdir və mənə də xəbər göndərdi ki, yay vaxtı gel bura. Getdim ora. Mən hec kəsi tanımırdım. Amma o, bir Azərbaycanın ziyalıları içərisində yaşayan adam kimi onun çox tanışları vardı.

Bir qız gözümə sataşdı, sora tanış olduq və sonra belə məlum oldu ki, mənim böyük qardaşım onun ailəsini, atasını da yaxşı tanıyır. Amma tanışlığımız qısa oldu. Belə çox ürəyimə girdi. Xatirimdədi, bir neçə gün sonra mən Zərifə xanımla görüşdüm. Gəldi, görüşən kimi mənə dedi ki, görsənirki artıq biz bundan sora görüşə bilməyəcik. Mən dedim nə üçün? Dedi sən bilirsən ki, mənim atamı işdən çıxarıblar, sən isə belə bir orqanda işləyirsən, görsənir ki, bizim bundan sonra əlaqələrimiz mümkün deyil. Mən buna etiraz etdim. Dedim ki bizim münasibətlərimiz kimin harda işləməsindən asılı deyil.

Nazir Yemelyanov məni dəvət etdi. Bir az işdən söhbət apardıq. Ondan sonra mənə dedi ki sən belə bir qızla əlaqədəsən. Dedim bəli. Dedi sən bilirsən ki, onun atası Əziz Əliyev vəzifədən xaric olunubdur? Dedim bilirəm. Dedi ki, o vaxt belə deyirdilər: товарищ Мир Джафар Багиров о нем очень плохого мнения, yəni onun haqqında pis fikirdədi. Dedim mənim bu işdən məlumatım yoxdur. Ona görə də dedi mən sənə təklif edirəm o qızla əlaqəni kəs. Çunki bu sənin karyerana burada çox böyük maneəçiliklər törədər.

Nəhayət, 54-cü ildə mən ailə həyatı qurdum Zərifə xanımla və ikimiz də çox xoşbəxt olduq. İndi mən özümün bu hissiyatlarım, sevgi- məhəbbətim haqqında deyirəm, ancaq əgər onun tərəfindən mənə qarşı da bu qədər belə səmimi məhəbbət, səmimi hissiyat olmasaydı təbiidir ki, bəlkə mən heç onnan həyat qura bilməzdim. Əgər nəzərə alsaq ki, bu sevgi böyük bir sınaqdan keçdi, məsələn, bir neçə il bizi bundan məhrum etmək istədilər. O da dönmədi, mən də dönmədim.

Demək, mənim əvvəlki fikirlərim, bu məhəbbət, sevgi, səmimiyyət haqqında olan fikirlərim tamamilə təsdiq olundu.

Ondan sonra 30 il xoşbəxt həyat sürdük. İki gözəl övladımız var, qızım Sevil, oğlum İlham. Ancaq çox təəssüflər ki, o, həyatdan tez getdi. 85-ci ildə vəfat etdi. Və ondan sonra da artıq 16 il keçir. İndi mənim bu sevgimin, məhəbbətimin nə qədər dərin kökləri olduğunu güman edirəm ki, sübut etməyə ehtiyac yoxdur”.

AMEA MƏRKƏZİ ELMİ KITABXANASI